*El sənətkarları*

*İyirminci əsr Azərbaycan aşıq sənətinin həm ifaçılıq, həm də yaradıcılıq sahəsindəki uğurlarının ləyaqətli davamçılarından olan qüdrətli saz-söz ustadlarına könül borcumuz çoxdur. Onların sazı-sözü, ifaçılıq məharəti illər, onillər boyu ruhumuzu oxşadı, zövqümüzə təsir etdi, dilimizə taqət, ürəyimizə təpər verdi. Ötən əsrin otuz-əllinci illərində aşıq sənətinin istedadlı nümayəndələrindən biri də Aşıq Əkbər olub.*

# Sazın Aşıq Əkbər möcüzəsi



Aşıq Əkbər Zərbalı oğlu Cəfərov 1933-cü ildə Tovuz rayonunun Bozalqanlı kəndində dünyaya göz açıb. Saza-sözə vurğun olan Əkbər bir çox böyük ustad sənətkarların - Aşıq Mirzə Bayramovun, Aşıq Məhəmməd Rzayevin, Aşıq Hüseyn Dəmirçinin, Aşıq Mikayıl Azaflının, Aşıq Yunis Həsənovun, Aşıq Vəli Qaraxanlının yanında şagirdlikdən ustadlığa qədər yüksəlib. Əsas müəllimi isə aşıq dastanlarının mahir bilicisi, böyük ustad, Aşıq Hüseyn Bozalqanlının bacısı oğlu Qədir İsmayılov olub.

Sazdan əvvəl balabanda, zurnada, tütəkdə əksər aşıq havalarını, el havalarını məharətlə ifa edən Aşıq Əkbər böyük ustad Mikayıl Azaflı və Yusif Yusifovun təkidi ilə könlünü aşıq sənətinə, həmişəlik saza-sözə bağlayır.

Aşıqlar adətən zil, orta və bəm köklərdən birində oxumağı bacarırlar. Aşıq Əkbər isə hər üç kökdə böyük ustalıq və məharətlə oxuya bilirdi. Onun unudulmaz şaqraq səsi, hamını heyrətə gətirən möcüzəli zəngulləsi, məharətli danışığı, sözü-söhbəti var idi...

1964-cü ildə otuz yaşında olan Əkbər və balabançı Müseyib Abbasov Moskvada keçirilən Beynəlxalq Musiqi Festivalında çıxış etdiyi zaman bu bənzərsiz ifadan heyrətə və vəcdə gələn amerikalı musiqişünas, professor Alan Lomaks özünü saxlaya bilməyib deyir: "Mən həyatım boyu çox yerlər gəzmişəm və çox gözəl səslər eşitmişəm. Ancaq sənin kimi gur, şaqraq, məlahətli səsə ilk dəfədir ki, rast gəlirəm".

Həmin tədbirdə Aşıq Əkbərlə birlikdə olan unudulmaz alimimiz Əminə Eldarova belə bir məqamı ayrıca vurğulayırdı: "Festivalda dünyanın müxtəlif ölkələrini təmsil edən yüzlərlə ifaçı vardı. Alan Lomaks bizim dilimizi bilməsə də, məhz Aşıq Əkbərin ifası onu özünə çəkmişdi. O, Əkbərin ifasında bir neçə mahnını lentə yazdırdı. Üstündən uzun illər keçdikdən sonra 2011-cı ildə Bakıya gələn başqa bir amerikalı musiqişünas-professor Anna Oldilid həmin lent yazısının bir nüsxəsini mənə bağışladı. Alan Lomaks Əkbərin möcüzəli səsi barədə bizə dediklərini orada da söyləyir. Bu böyük musiqişünas 2002-ci ildə dünyasını dəyişib".

Aşıq Əkbər ifaçılıq qabiliyyətinə görə Aşıq Mirzə Bayramovun səs-oxu ənənəsini davam etdirirdi. Ancaq onun bülbül cəh-cəhi təkrarsız gözəlliyə malik idi. Adətən saz havası aşığın səsini, ifasını tamamlayıb gözəlləşdirirdi. Əkbərin bənzərsiz şirinliyə malik səsi isə tamam başqa bir mənzərə ortaya qoyurdu. O, oxuduğu zaman səsində çağlayan möcüzəli məlahət saz havalarını gözəlləşdirirdi. "Ovşarı", "Şahsevən", "Kərəm gözəlləməsi", "Qəhrəmanı", "Mirzəcan", "Çoban bayatı", "Göyçə gözəlləməsi", "Aşıq Söyünü" sırasından olan neçə-neçə saz havasının ifa biçimində onun səs möhürü var. İndi bu havalar adətən Əkbər səsi, Əkbər ifası ilə yaddaşlara köçmüş, ürəklərdə yuva bağlamışdır.

Hansı məclisdə olmasından asılı olmayaraq, Əkbər həmişə sidq ürəklə oxuyardı. O, böyük folklor bilicisi, yaddaşında minlərlə şeir olan tükənməz xəzinə var idi. Oxuduğu zaman ürəyi səsində görünürdü, işıq kimi, nur kimi bərq vururdu səs çalarları. Tanrı ona boy-buxun, yaraşıq verəndə səxavətini əsirgəməmişdi. Bu səbəbdən Aşıq Əkbər təkcə səsiylə yox, görkəmiylə, üz-gözünün nuruyla, mehribanlığı ilə məclisə yaraşıq gətirərdi. Sədəfli sazı bağrına basanda dünyanı heyrətə salardı.

Aşıq Əkbərin ifa və oxu tərzində, məclis aparmağında əgər belə demək mümkünsə, bir ziyalılıq vardı. Çox ölçülü-biçili danışırdı, hərəkət plastikasına, etik davranış normalarına xüsusi diqqət yetirərdi. Mərifət, qanacaq, abır-həya, ləyaqət məkanıydı bu adam boyaboy. Əli də açıq idi, könlü də!

İfa etdiyi havaların müxtəlif məqamlarındakı zil-bəm keçidlərini, eləcə də bir havadan başqa havaya adlama manerasını o qədər böyük ustalıqla həyata keçirirdi ki, gerçəkləşdirdiyi sənət məharətinə heyran qalmaya bilmirsən. Oxuduğu zaman nümayiş etdirdiyi səs gözəlliyi ilə insanları heyran edirdi.

Aşıq Əkbər hələ sağlığında ikən böyük ifaçılıq məktəbi yaratmışdı. Oxuyanların miqyası doğma Tovuzun hüdudlarından çox-çox uzaqlara yayılmışdı. Göyçədə, Gəncədə, Kəlbəcərdə, Gədəbəydə çalıb-çağırmaqla yanaşı, Təbriz, Zəncan və digər bölgələrdə də öz telli sazı ilə maraqla konsertlər vermişdir.

Ayrı-ayrı dövrlərdə sevimli Ozan aşıqlarından olan ustad sənətkar Aşıq Əkbər haqqında televiziya kanallarında, radioda maraqlı verilişlər hazırlanmış, dinləyicilərin nəzərinə çatdırılmışdır ki, o, zəngin musiqi və söz repertuarına, teatral keyfiyyətlərə malik olan el korifeylərindən biridir, milli dövlətçilik düşüncəsinə malikdir. Aşıq Əkbər, şair, aktyor, rəqqas kimi keyfiyyətləri unikal şəkildə özündə birləşdirən saz, söz ustadı idi.

**Qədir ASLAN,**
**"Respublika".**